*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 44-49* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.44*

# ƏHMƏD HƏMDİ TANPINARIN "HÜZUR" ROMANININ PSİXOANALİTİK TƏHLİLİ

**Eşqanə Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: eshqane@mail.ru
ORCİD: https://orcid.org/0000-0002-4934-4168

**Xülasə.** Görkəmli yazıçı, şair, ədəbiyyatşünas Ə.H.Tanpınarın XX əsr türk ədəbiyyatında xüsusi yeri vardır. O, xüsusən hekayə və romanları ilə türk ədəbiyyatına bir sıra yeniliklər gətirmişdir. Psixoloji-fəlsəfi, sosial məsələlərin dərinlik qazandığı bu əsərlər multidissiplinar yanaşma baxımından əhəmiyyət kəsb edir. Tədqiqata cəlb etdiyimiz "Hüzur" romanının nümunəsi əsasında da bunu görmək mümkündür. Yazıçının bu romanı psixoloji məqamların dərinliyi, daxili konflikt və xarakterlərin dolğunluğu baxımından xüsusilə maraq doğurur. Əsərdə retrospeksiya, şüuraltı travmalar, obrazların psixoloji yaşantıları geniş lövhələrlə öz əksini tapmışdır. Məqalədə yazıçının "Hüzur" romanı daha dərin mənəvi qatlara enilərək tədqiqata cəlb ediləcəkdir.
**Açar sözlər:** Multidissiplinar, psixoloji roman, fəlsəfi roman, retrospeksiya, psixoanalitik analiz

**Məqalə tarixçəsi:** göndərilib – 25.01.2023; qəbul edilib – 03.02.2023

# PSYCHOANALYTIC ANALYSIS OF THE NOVEL "A MIND AT PEACE" BY AHMED HAMDI TANPINAR

**Eshgana Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: eshqane@mail.ru
ORCİD: https://orcid.org/0000-0002-4934-4168

**Abstract.** A prominent writer, poet, literary critic A.H.Tanpinar has a special place in Turkish literature of XX century. He brought a number of innovations to Turkish literature, especially with his stories and novels. These works, in which psychological-philosophical, social issues acquire depth, are important from the point of view of a multidisciplinary approach. This can also be seen on the example of the Novel "A Mind at Peace" ("Huzur"), which we involve in the study. This novel by the writer is of particular interest in terms of the depth of psychological moments, internal conflict and fullness of characters. Retrospection, subconscious traumas, psychological experiences of images are reflected in the work with wide plates. In the article, the writer's Novel "A Mind at Peace" will be involved in research, descending into deeper spiritual layers.
**Keywords:** Multidisciplinary, psychological novel, philosophical novel, retrospection, psychoanalytic analysis

**Article history:** received − 25.01.2023; accepted − 03.02.2023

## Giriş / *Introduction*

Psixoloji-fəlsəfi romanlarda diqqəti cəlb edən əsas məqam obrazın psixoloji yaşantılarının, insan ruhunun dərinliklərinin, şüuraltının qeyri-ixtiyari istəklərinin, vicdan duyğusunun yaratdığı daxili konfliktlərin əks olunmasıdır. Q.Yunqa görə, "insan öz ruhunu kəşf etdikcə, instinktləri ilə rastlaşdıqca özünü tanımağa başlayır" (Jung, 2013, s. 112). Bu səbəbdən də psixoloji romanın əsas obyekti insan ruhunun gizlinlərinin kəşfi və təhlilidir. Ona görə də psixoloji təhlillərin yer aldığı romanlar, əsasən, daxili konflikt üzərində qurularaq şüuraltı axın, daxili monoloq, yuxugörmə, hallüsinasiya kimi vasitələrlə obrazın daxili dünyasının təsvirinə xidmət edir. Ə.H.Tanpınarın "Mahur bəstə", "Hüzur", "Saatları qurma institutu" və s. kimi romanlarının hər birində obrazın daxili axtarışları, dilemmalar qarşısındakı çırpınışları, qorxu və tərəddüdləri öz əksini tapır, hətta zahiri əlamətlər də, daxili aləmin aynasına çevrilir. Xüsusən də bu əsərlərdə şüur axını obrazların mənəvi dünyasını əks etdirmək baxımından maraq doğurur. Qeyd edək ki, "daxili assosiasiyalar selinin, şüuraltı proseslərin bədii təcəssüsmü ilə səciyyələnən şüur axını" (Kazımoğlu, 2012, s. 90) XX əsrdən başlayaraq, müasir türk romanlarında olduqca geniş yayılmışdır. Ə.H.Tanpınarın "Hüzur" romanı bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

## Əsas hissə / *Main Part*

"Tanpınar romançılığının məhək daşı" (Doğan, 2010, s. 535) hesab edilən "Hüzur" ("Huzur", 1949) psixoloji-fəlsəfi romanı baş qəhrəmanların adları ilə – Ehsan, Nuran, Suad və Mümtaz olmaqla dörd hissədən ibarətdir. Daxili monoloq və şüuraltı axın vasitəsilə əsərin əsas qəhrəmanı Mümtazın iç dünyası açılır, şüuraltı travmaları əks olunur. Atasının qətlə yetirilməsi, qazma, kürək səslərinin içində anasının qışqırtısının qulaqlarındakı cingiltisi əsər boyunca bir leytmotiv kimi yuxularında dolaşır. Bu faciələrin arxasınca anasını da itirməsi onun psixologiyasında dərin yara, ruh dünyasında böyük boşluq yaradır. "Bu ölümün arxasında da, heç cür doldura bilmədiyi, uzun bir boşluq vardı. Bəlkə də uşaq bu sıxıntılı günlərini xatırlamamağa çalışa-çalışa zehnində bu zaman boşluğunu özü yaratmışdı" (Tanpınar, 2013, s. 33). İstanbula, Ehsan bəyin yanına gələn Mümtaz burada rahat həyat, gözəl ailə istiliyi görsə də, uşaqlığından bəri aldığı psixoloji zədələr, üzərinə əlavələr də gəlməklə, leytmotiv olaraq həyatı boyunca izlənilir. Ehsanın xəstələnməsi və onu itirmək duyğusu bu hissləri yenidən oyadır. Çünki "Mümtaz bu psixologiyanı ömründə ilk dəfə tanımırdı. Onun daxili mənliyini, o sular altında uyuyan, fəqət hər şeyi idarə edən kəsif təbəqəni bir az da bu qorxu əmələ gətirirdi" (Tanpınar, 2013, s. 20). Hadisələrin gedişində məlum olur ki, sevdiklərini bir-bir itirən Mümtazın qəlbində yenidən itirmək, tək qalmaq qorxusu dərin iz buraxmışdı. Mümtaz–Ehsan, Mümtaz–Nuran obrazlararası münasibətlərdə bu duyğu yenidən dirçələrək, bütün varlığına hakim kəsilir. Aşağıdakı psixoloji təhlillər bu baxımdan maraq doğurur: "Mümtaz mələklərinin ən yüksək həddə çatmış dəliliyi içində hər şeydən, adətən, qorxaraq yaşayırdı. Heç bir dəniz qəzası batmaq üzrə olan bir gəmini bu qədər hər parçasıyla sarsıtmaz, hər mismarını yerindən oynada bilməzdi" (Tanpınar, 2013, s. 55). Mümtazın bir qorxusu da nişanlısı Nuranı itirməkdir. Ümumiyyətlə, əsər boyu Mümtazın qarmaqarışıq duyğuların verdiyi əzab içində çırpındığını görürük. Qeyd edək ki, yazıçı "Eşqə dair" adlı məqaləsində də eşq, ölüm və əbədiyyat düşüncəsini bir-biriylə əlaqəli şəkildə təqdim edir (Tanpınar A. , 2006, s. 132). "Eşq və ölüm" adlı məqaləsində yazır: "Eşq, ruhun əbədiyyata doğru axışında öz-özünə güvəni, zamanı yenmək üçün insan iradəsinin möhtac olduğu qüdrətə və iradəyə çatmasıdır. Ölüm bu mərhələdə kamalın tamamiyyətə (bütünə) keşikçisi olur. Birincidən yorulanda, o birinə, ikincidən qorxanda birinciyə sığınanlar, bu ekiz təcrübənin verə biləcəyi nailiyyətin astanasında qalanlardır" (Tanpınar A. , 2006, s. 134). Yazıçının bu fikirləri Nuran–Mümtaz münasibətlərində də özünü göstərir. Bütün qəlbi ilə Nurana bağlanan Mümtaz axtardığı, sevdiyi hər şeyi onun varlığında tapır. Mümtaz şəhərdə böyüyən, gözəl İstanbul türkçəsiylə danışan, klassik türk və xalq musiqisini sevən Nuranın eşqinin vəsiləsilə bir tərkibə, birliyə qovuşduğunu hiss edir. Mümtaz üçün bu eşq keçmişin əzablarından bir qurtuluşdur. Suadın Nurana eşq məktubu yazması isə onun şüuraltında basdırılmış duyğularını yenidən üzə çıxarır.

Əsərdə konflikt həm statik, həm də dinamik səciyyə daşıyır. Əsər boyu Mümtazın daim daxili ziddiyyətlər içində çırpındığını görürük: "Həmişə təzad halında və bir-birini qovalayan çöhrələrin iqlimində yaşayır, onlarla düşünür, onlarla görüb duyurdu" (Tanpınar Ə. , 2013, s. 57). "Mümtaz "Min bir gecə"dəki antikvarçının hekayəsinə bənzəyən əkiz bir ömür yaşayırdı. Bir tərəfdən gözəl günlərinin xatirəsi zehnindən ayrılmayır, fəqət, o günəş doğar-doğmaz, ayrılığın gecəsi bütün əzablarıyla içində qurulurdu. Xülasə, demək olar ki, xəyalında yaşayan gənc adam cənnət və cəhənnəmini bərabərində gəzdirirdi. Bu iki həddin arasında, uçurum kənarında şiddətli oyanışlarla dolu bir lunatik həyatı vardı" (Tanpınar Ə. , 2013, s. 59). Beləliklə, bədii konflikt həm Mümtazın daxili ziddiyyətləri, həm də Suadla münasibətlər kontekstində özünü göstərir. Suadın Nurana məktubları bu konflikti daha da gərginləşdirir. Suadın gizlincə Mümtazın evinə girib orada intihar etməsi isə hadisələri daha da dərinləşdirərək kulminasiyaya çatdırır. Mümtazın qəlbində bir tərəfdə Nurana duyduğu eşq, digər tərəfdə bu qadına olan eşqindən doğan düşmənçilik, kin, nifrət, iyrənmə duyğusu bir-biriylə mübarizə aparır. Yazıçı öz müəllif mövqeyini ortaya qoyaraq, göstərir ki, bəlkə də bir gün Mümtazın qəlbi də, eynən Fatmanın, Yaşarın, Fahirin qəlbi kimi zəhər çanağına çevriləcək, insanlar arasında ilan kimi fısıldayaraq gəzəcəkdir (Tanpınar Ə. , 2013, s. 214). Bu ziddiyyətlər müstəvisində Suad obrazının xüsusi ilə böyük təsiri vardır. İki uşaq atası, vərəm xəstəsi Suad sanki xəstəliyinin, çəkdiyi əzabların intiqamını çirkin bir əllə bütün dünyadan almağa çalışır. Mümtazın dilindən Suad belə səciyyələndirilir: "İnsan oğlu gözəl şeyə düşməndi. Necə bilmədən, öz səadətini, başqasının səadətini yıxmaq istəyərdi? İnsan oğlu hüzurun, yaxşılığın düşməniydi (Tanpınar Ə. , 2013, s. 214). Və ya Nuranın dilindən Suadın sahildə balaca, sevimli bir iti məhz qayğısız, şən göründüyü üçün dənizə atdığı, son anda zavallı iti xilas etdikləri nəql edilir. Suad, əslində zidd xarakterli obrazdır. O, məktubunda Nurana "Sənə möhtacam.. Sənsiz xarab olacağam" (Tanpınar Ə. , 2013, s. 212) yazsa da, əslində, heç Nuranı sevmir. Tədqiqatçı İ.Şahin "Ə.H.Tanpınarın "Suadın məktubu" başlıqlı əlyazmaları" məqaləsindəki açıqlamalarda bu məsələyə də aydınlıq gətirmişdir. Məsələn, 1557 nömrəli əlyazmada Suadın dilindən oxuyuruq: "İçimdə böyük bir qurtuluş hissi vardı. Bir daha bu evə girməyəcək, sənin həyatına qarışmayacaqdım. Nuranın açarını tapdığım gecəyə, hətta sizi tanıdığım günə də lənət edirdim. Özümü camaşır dolabında kirli paltarları qarışdırarkən burnunu əqrəb çalan bir köpəyə bənzədirdim" (Şahin, 2017, s. 237). 1312 nömrəli əlyazmada isə oxuyuruq; "(Nuran) elə bilir ki, onu sevirəm. İnan ki, heç kimi sevmirəm. Əlimdən gəlsəydi, insanlığın özünü sevərdim. Fəqət, sənin dediyin kimi qüdrətləri üçün deyil, məhkum taleləri üçün" (Şahin, 2017, s. 308). Suadın Mümtazgilin evində intihar etməsi də, Nurana olan böyük eşqinin sübutu deyil, onun pislik arzusundan, bir xoşbəxtliyi baltalamaq, məhv etmək həvəsindən doğur. Əslində buna nail olur da. Bu hadisədən sonra Nuran Mümtazdan ayrılıb, ona ümid verməmək üçün keçmiş həyat yoldaşı ilə yenidən barışır. Bu ayrılıq Mümtazın bütün həyatını alt-üst edir.

Qeyd edək ki, əsərdə Mümtaz–Suad xətti psixoloji təhlillər baxımından diqqəti cəlb edir. Məsələn, "Suad" başlıqlı bölümdə Suadın Mümtaza bir hekayə yazmağı tövsiyə etdiyini oxuyuruq. Hekayəyə görə, təmiz, əxlaqlı bir adam həyatının monotonluğundan bezərək dəyişir, bu dəyişikliyin nəticəsində arvadını öldürür, amma cinayətdən sonra sanki yenidən dirilib, günahlarından arınmış şəkildə məsumiyyətinə qovuşur. J.Parla bu məsələyə toxunaraq, bu mövzunun dekadant olduğunu, bir yandan Bodlerin şər çiçəkləri qavramına, bir yandan da Dostoyevskinin məsum-suçlularındakı arınma motivinə söykəndiyini yazır (Parla, 2015, s. 141). Əslində, bütün bunlar Suad xarakterinin daxili ziddiyyətlərinin bir təzahürüdür. Xəstəlik, ölümlə pəncələşmə, yaşamaq eşqi, nifrət, kin, intiqam duyğusu bir-biriylə üz-üzə gələrək, Suadı yaşadığı mühitə, ailəsinə, hətta özünə belə yadlaşdırır. O, suçluluq və məsumiyyət duyğusu içində həyata istehza edərək şəkildən-şəklə girir, metamarfoza uğrayır: "Öz həyatımı bir tərəfə buraxmışam, hər an başqa bir insanın dərisində yaşayıram. Bir oğru, bir qatil, ayağını sürüyərək yeriyən bir zavallı, hamısı, hər gördüyüm canlı məxluq, mənim üçün ayrı-ayrı çağırışlar edir (olur). Məni çağırırlar. Hamısının arxasınca qaçıram. Mənə qabıqlarını açırlar, yaxud mən onlara vücudumu açıram, fərq etmədən içimə yerləşirlər, əlimi, qolumu, düşüncəmi zəbt edirlər, qorxuları, vahimələri, mənim qorxularım, vahimələrim olur, gecə vaxtı onların röyasını görürəm, onların əzabıyla oyanıram" (Tanpınar Ə. , 2013, s. 282). Verdiyimiz nümunədən Suadın dərin psixoloji gərginlik keçirdiyini görürük. Bu hekayəni Mümtaza yazdırma səbəbi isə olduqca maraqlıdır: "Bir

kərə olsun onurğanda dəhşət ürpərsin deyə! Hamınızın başında sevgi, iztirab adlı bir yığın kəlmə var. Kəlmələrdə yaşayırsınız. Mən kəlimələrin mənasını öyrənmək istəyirəm" (Tanpınar Ə. , 2013, s. 283). Fikrimizcə, intihar üçün Mümtazın evini seçməsi də bu səbəbdən qaynaqlanır. Tanpınar müsahibələrin birində Suadın intihar səbəbi haqqında deyir: "Allahı tapa bilmədiyi üçün Suad mənim təsəvvürümdə bugünkü insanlıqdır. Hərəkətlərinə lazımınca nəzarət edə bilmədiyi üçün bədbəxtdir. Fəqət Suad öz hekayətini danışacaqdır. Mümtaza yazdığı məktubda bunu söyləyəcək. Onu ayrı nəşr edəcəyəm" (Tanpınar A. , 2004, s. 205). Yazıçının ifadə etdiyi kimi, romana salınmayan bu əlyazmalarda mənəvi rahatlığın, ölüm-olum müəmmasının fəlsəfi mahiyyəti açıqlanır, əslində, bu məktublar müstəvisində türk ziyalısının intellektual böhranı öz əksini tapır. Şüuraltının ən dərin qatları açıqlanır. Bu məsələlərdən biri də yuxugörmə ilə bağlıdır. Psixoloji romanların hər birində bu və ya digər dərəcədə yuxu motivi yer alır. Freyd bu haqda yazır: "... yuxugörmə gərəksiz bir nəsnə kimi görünsə belə, o, bir gerçəklikdir və biz onun nə üçün baş verdiyini anlamaq üçün çalışa bilərik. Nə üçün insan yuxuya gedəndə onun psixi yaşamı öz işini bütünlüklə dayandırmır? Görünür, burada nə isə insan ruhuna dinclik verməyən bir səbəb vardır" (Freud, 2018, s. 110). N.Tosun isə yazır ki, bəzi yuxularda olub-bitənlər, şüuraltının bizə oynadığı bir oyuna, karnavala çevrilir (Tosun, 2011, s. 301). Bu mülahizələri, romandakı yuxu motivinin alt çalarlarıyla əlaqələndirə bilərik. Bu bədii detaldan məharətlə istifadə edən yazıçı, yuxular vasitəsiylə obrazların psixikasını, şüuraltısını da canlandırmağa çalışır. Suadın özünü öldürdüyü gecə Nuran və Mümtazın onu öz yuxularında görməsi təsadüfi seçilmiş bir detal deyildir. Bu hadisədən sonra yuxu və hallüsinasiya görmə aparıcı xətt olaraq inkişaf edir. Mümtaz dərin ruhi-psixoloji sarsıntılar keçirib, daxilində ölüm, eşq, varlıq-yoxluq fəlsəfəsini kəşf etməyə çalışır. "Dünya, mənsiz də mövcud. Öz-özünə mövcud" (Tanpınar Ə. , 2013, s. 368), – deyən Mümtazın daxili monoloqundan onun dərin böhran keçirdiyi görünür. "Mən ki o qədər düşünürəm. Düşüncəm, yorğunluğu üzündən heç cür yatağına girə bilməyib, otağında sabaha qədər dolaşan adama bənzəyir. Nədən indi heç bir şey düşünə bilmirəm? Yoxsa yaşamırammı? Yoxsa dünyadan ayrıldımmı? Bəlkə də, dünya məni buraxdı" (Tanpınar Ə. , 2013, s. 379), – kimi sayıqlamalar aparıcı xətt üzrə inkişaf edərək əsərin məğzini açır.

Cavabsız suallar içində çırpınan Mümtaz bir an olsun Suadın ölüm anını unuda bilmir, günahkarlıq duyğusu yaşayır, özünü məsum, suçlu hesab edir, bir tərəfdən, sevgilisinin ayrılığı onu sarsıdır, digər tərəfdən isə yuxuda da, oyaqkən də hər yerdə gözünə Suad görünür. Hətta Ehsana dərman almağa gedərkən, ona elə gəlir ki, Suadla addımlayır. Suadın xəyalı gerçəkliklə-yuxu arasında, getdiyi hər yerdə onu təqib edir. Suadın xəyalı ilə üzləşən Mümtaz "Niyə gəldin? Burax məni artıq", – deyir. Suad isə ondan heç vaxt ayrılmadığını deyir. Ən maraqlısı odur ki, ölümdən və ölməkdən iyrənən, insanların həyatını çirkin bir əl ilə məhv etməyə çalışan Suad, Mümtazın qarabasmalarında gözəlləşmiş, eynən Bodlerin şər çiçəkləri kimi sanki ölümlə arınmış, təmizlənmiş kimi qarşısına çıxır. Və ya qarabasmaların birində, Suadın Mümtazın ovcuna balaca, canlı bir şey qoyduğunu görürük. Jalə Parlanın ifadəsi ilə desək, bu, əslində Mümtazın "mən"liyidir. Bu, eyni zamanda Suadla Mümtazın son görüşü mənasını verən metamarfozdur (Parla, 2015, s. 151). Suadın "Mənimlə gəl. Bunlar sənin daşıyacağın yüklər deyil" israrını rədd edən Mümtaz Suadın xəyalının zərbəsi ilə yerə yıxılıb dərmanları qırır. Evə gəldikdə isə Ehsanın artıq vəfat etdiyini öyrənir. Roman Mümtazın dərin iztirabla pillələrə çöküb başını qucaqlaması, radioda isə II Dünya müharibəsinin başlama xəbəri ilə bitir. Əsər zaman məfhumu baxımından xüsusilə diqqəti cəlb edir. Hadisələr II Dünya müharibəsinin başlaması xəbərindən bir gün öncə başlayıb, müharibənin başlama xəbəri ilə sona çatır. Yəni hadisələr bir günün içərisində baş versə də, əslində, zaman və zamansızlıq içərisində cərəyan edir. Yazıçı məharətlə şüuraltı axın və daxili monoloqlardan istifadə edərək, daha geniş zaman kəsiyini ələ alır.

Qeyd edək ki, "Hüzur"u təkcə bir eşq romanı kimi dəyərləndimək mümkün deyil. Əsərin arxa qapağında yazılan "Hüzur öncə Mümtazla Nuranın eşq romanı, sonra isə ömrümüzün romanıdır" (Tanpınar A. , 2002, s. 442) sözlərinin dərin mənəvi alt qatları vardır. Bu roman mədəniyyətlərarası konflikt baxımından da diqqəti cəlb edir. Mümtaz–Nuran eşqi romana xüsusi rahiyə qatsa da, roman Şərq-Qərb dəyərləri arasında qalan türk ziyalısının böhranlarını özündə əks etdirməsi baxımından da əhəmiyyətlidir. Şərq-Qərb dəyərləri arasındakı münaqişələr bir çox romanda zidd qütblər kimi qarşı-qarşıya gətirilsə də, bu əsərdə Şərq-Qərb qarşıdurması bir obrazın daxili təbəddülatı kimi təqdim edi-

lir. Ümumiyyətlə, dərin fəlsəfi məzmuna malik olan əsərdə obrazların dilindən musiqi, Şərq və Qərb ədəbiyyatının, mədəniyyətinin öyrənilməsi kimi məsələlərə də toxunulmuşdur. Məsələn, Ehsan Mümtazla dialoqunda, Suadın vəsvəsələrindən, əzablarından bəhs edərkən, Hegelin, Nitsşenin, Marksın, Dostoyevskinin bu əzabları Suaddan səksən il əvvəl çəkib qurtardığını, bu gün isə nə Elüarın poeziyasının, nə də knyaz Stavroqinin əzablarının yeni olmadığını vurğulayır (Tanpınar Ə. , 2013, s. 290). Və ya Mümtazın Ehsanın təsiriylə Şərq-Qərb ədəbiyyatını dərindən öyrəndiyini, mütəmadi olaraq, Füzuli, Şeyx Qalib, Bodler, Dostoyevski və s. haqqında danışdığını, klassik türk musiqisi ilə maraqlandığını görürük. Xüsusən musiqi konflikt və ya sintez yaradan vasitə kimi qarşımıza çıxır. R.Polland bu problem haqqında yazır, "ənənəvi romanın materialı hadisədir, fransız sənətində klassik tragediyadan çağdaş romana qədər uzanan cizgidə gördüyümüz tək bir hadisədən, bir həyat yolundan və ya bir-biriylə əlaqədar bir çox həyatı əks etdirən süjet xəttindən bəhs edilir. Musiqili romanın materialı isə duyğu olmalıdır" (Ertem, 2004, s. 104). Pollandın bu mülahizələrini eynilə "Hüzur" romanına da şamil edə bilərik. Tədqiqatçı Erbay (Erbay, 2001, s. 177) bu əsərin musiqi ahəngi üzərində qurulmuş roman olduğunu vurğulayır. Tənqidçi B.Moran da əsərin bölümlərini nəzərdə tutaraq qeyd edir ki, bu dörd bölüm musiqi parçaları funksiyasını yerinə yetirir. Şübhəsiz ki, Tanpınar "Hüzur"u musiqi şəklinə uyğun yazmağa çalışmışdır (Moran, 1998, s. 159). Bu fikirlərlə tamamilə razılaşıb vurğulayaq ki, həqiqətən də romanda musiqiyə böyük yer ayrılmış, bu bədii detal, hətta zaman məfhumu ilə eyniləşdirilmişdir. Əsərdə yuxu və musiqi əsərin qəhrəmanlarının xəyalını zamanın fövqünə apararaq, müxtəlif ruh hallarını ifadə edir. Təsadüfi deyil ki, yazıçı musiqini "geydirilmiş zaman", "maddəsiz" (Tanpınar A. , 2006, s. 37) məfhum hesab edir. Tanpınar musiqini duaya bənzədir: "Maddəsi olmadığı üçün insanın ruhuna işlər, onu silər, dəyişdirər, ayrı zamanlar icad edər. Axırda isə eynən dua kimi ortada "mən"dən fərqli olan yeni bir "mən" qalır. Və bu "mən" bir növ kainata bərabərdir" (Tanpınar A. , 2006, s. 371). Beləliklə, yazıçı əsərlərində özünün də ifadə etdiyi kimi, "yaşadığımız zamandan başqa bir zamana getmək", "başqa cür ritmi olan məkan və əşya ilə içdən qaynaşan bir zamanı" (Tanpınar A. , 2006, s. 351) yaşamaq istəyən obrazlar yaradır. Musiqi bədii detalının qəhrəmanın ruh halı ilə həmahənglik təşkil etməsi də buradan qaynaqlanır. Bu baxımdan "Hüzur"u Mahur bəstənin simfoniyası kimi də səciyyələndirə bilərik. İnsan ruhunun təlatümləri, eniş-yoxuşları, yaralı qəlbin fəryadları klassik musiqinin notlarına köklənmş kimidir. Eyni zamanda klassik Qərb və Şərq musiqisi Şərq-Qərb konfliktinin, dəyərlər sisteminin bir təzahürüdür. Mümtazın daxili konfliktində bu məsələ öz əksini tapır: "Birdən-birə alaturka musiqinin içində oyandırdığı ruh halından düşüncəsinin Qərb musiqisinə keçməsinə özü də çaşırdı. "Nə qədər qəribə... İki dünyam var. Elə Nuran kimi, iki aləmin, iki eşqin ortasındayam. Demək ki, bir bütöv deyiləm" (Tanpınar Ə. , 2013, s. 274).

## Nəticə / *Conclusion*

Tədqiqat nəticəsində müxtəlif obrazların, xüsusən də Mümtaz və Suadın timsalında insan psixologiyasının gizlinlərinin açıldığını, instinkt və şüuraltı travmalarının geniş lövhələrlə əks olunduğunu görürük. Əsərdə daha dərin mənəvi qatlar, eşq, olum-ölüm fəlsəfəsi ilə yanaşı, Şərq-Qərb dəyərlərinin qarşıdurması da geniş yer alır. Belə ki, Ehsan obrazı Şərq-Qərb sinkretizmini qəbul etdiyi halda, Mümtazın dualist xarakterində bu məsələlər də kəskin ziddiyyət halını alır. O özünü siam əkizləri kimi bir tərəfi Şərqə, bir tərəfi Qərbə baxan iki vücudlu, dördayaqlı məxluq kimi hiss edir. Əsər boyu dualist xarakterli insanların mənəvi iztirabları və xoşbəxtlik axtarışları öz əksini tapır. Əsərin adı könül rahatlığı mənasını versə də, qəhrəmanların hüzursuzluq, narahatlıq içində çırpındığını görürük. Əsas qəhrəman Mümtaz şüuraltına hopan xatirələrin, qəlbinin dərinliklərində dəfn edə bilmədiyi ölülərin yasını saxlayaraq, mənəvi rahatlığa heç cürə qovuşa bilmir. Bu əsəri böyüyə bilməməyin, yarımqalmışlığın romanı kimi səciyyələndirə bilərik.

## Ədəbiyyat / *References*

Doğan, A. (2010). 1940-cı ildən 1960-cı ilə qədər türk romanı. Mənbə: *Türk ədəbiyyatı tarixi: 2 cilddə, c. 2.* Bakı: MBM-Bəngü.

Erbay, E. (2001). *Doğumunun 100. Yılında Tanpınar'in Huzur'unda Musikinin Büyülü Dünyası.* Erzurum: Aktif Yayınevi.
Ertem, T. (2004). Müzikal Roman. Ankara. https://www.academia.edu/5957927/M%C3%BCzikal_Roman adresinden alındı
Freud, S. (2018). *Psixoanalizlə ilkin tanışlıq.* Bakı: Qanun.
Jung, C. (2013). *Keşfedilmemiş Benlik.* İstanbul: Barış İlhan Yayınevi.
Kazımoğlu, M. (2012). *Epos. Nəsr. Problemlər.* Bakı: Elm və təhsil.
Moran, B. (1998). *Türk Romanına Eleştirel Bir Bakış 1. A.Mithat`tan A.Tanpınar`a: 3 ciltte, c. 1.* İstanbul: İletişim Yayınları.
Parla, J. (2015). *Türk Romanında Yazar ve Başkalaşım.* İstanbul: İletişim.
Şahin, İ. (2017, Ocak-Haziran 9(17)). Ahmet Hamdi Tanpınar'in "Suad'ın Mektubu" Başlıklı Müsveddeleri. *Yeni Türk Edebiyatı Araştırmaları.*
Tanpınar, A. (2002). *Huzur.* İstanbul: Yapı Kredi Yay.
Tanpınar, A. (2004). *Mücevherlerin Sırrı.* İstanbul: Yapı Kredi Yayınları.
Tanpınar, A. (2006). *Yaşadığım Gibi.* İstanbul: Dergâh Yayınları.
Tanpınar, Ə. (2013). *Hüzur.* Bakı: Qanun.
Tosun, N. (2011). *Modern Öykü Kuramı.* Ankara: Hece Yayınları.

# ПСИХОАНАЛИТИЧЕСКИЙ АНАЛИЗ РОМАНА АХМЕДА ХАМДИ ТАНПЫНАРА "УПОЕНИЕ ДУШИ" ("ХУЗУР")

**Эшкана Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: eshqane@mail.ru
ORCİD: https://orcid.org/0000-0002-4934-4168

**Резюме.** Выдающийся писатель, поэт, литературовед А.Х.Танпынар занимает особое место в турецкой литературе XX века. Своими произведениями, в частности рассказами и романами, он внес ряд новшеств в турецкую литературу. Эти труды, где нашли своё глубокое отражение психолого-философские и социальные проблемы, представляют немалую важность с точки зрения междисциплинарного подхода. Это можно обнаружить и на примере романа писателя "Упоение души" ("Хузур"), который привлечён к исследованию. Этот роман представляет особый интерес с точки зрения глубины психологических моментов, внутреннего конфликта и масштабности характеров. В произведении широкими пластами отражены ретроспектива, подсознательные травмы, психологические переживания героев. В данной статье привлечен к исследованию роман писателя "Упоение души" с основательным анализом глубинных духовных пластов произведения.

**Ключевые слова:** междисциплинарный подход, психологический роман, философский роман, ретроспектива, психоаналитический анализ